**Təsdiq edilmişdir:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
müavini Samir Şərifov

06.03. 2025-ci il

## Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2025-ci il üzrə Yol Xəritəsi

| Sıra №-si | Alt komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcra/tövsiyə | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| **1. İcra sənədi üzrə icraatın effektivliyi** | | | | | |
| 1.1. | Borcluların aktivlərinin axtarılması işində qarşılıqlı fəaliyyətin səmərəliliyinin artırılması | 1. Daşınmaz əmlakın təsviri, bu əmlak üzərində dövlət reyestrində qeydiyyata alınmış hüquqlara dair aktual məlumatların "Elektron icra" informasiya sisteminə inteqrasiya əsasında tam ötürülməsinin təmin edilməsi | 01.10.2025 | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti) | Yaqub Qurbanov, Qismət Qurbanov, Nuranə Abbasova, |
| | | 2. Borclu şəxslərin sahibkarlıq fəaliyyəti ilə bağlı olan, icra sənədlərinin icrası üçün əhəmiyyət kəsb edən məlumatların dairəsinin müəyyən edilməsi və "Elektron icra" informasiya sisteminə inteqrasiya əsasında ötürülməsinin təmin edilməsi | 01.11.2025 | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Mərkəzi Bank, Dövlət Gömrük Komitəsi | Yaqub Qurbanov, Qismət Qurbanov, Nuranə Abbasova, Rasim Məmmədov, Tural Həsənli |
| 1.2. | İcra sənədlərinin icrası sahəsində səmərəliliyinin artırılması | 1. Borcluya məxsus mexaniki nəqliyyat vasitələrinin axtarılması və saxlanılması ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.09.2025 | Ədliyyə Nazirliyi | Yaqub Qurbanov, Elçin Nəsibov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2. Borcluya məxsus qiymətli kağızlar üzərində həbs qoyulması ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2025 | Ədliyyə Nazirliyi,<br>Mərkəzi Bank,<br>İqtisadiyyat Nazirliyi, | Yaqub Qurbanov,<br>Elçin Nəsibov,<br>Rasim Məmmədov,<br>Nuranə Abbasova |
| | | 3. Borclunun üçüncü şəxslərə qarşı pul tələblərinə tutmanın yönəldilməsi ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.08.2025 | Ədliyyə Nazirliyi,<br>Mərkəzi Bank,<br>İqtisadiyyat Nazirliyi | Yaqub Qurbanov,<br>Elçin Nəsibov,<br>Rasim Məmmədov,<br>Nuranə Abbasova |
| | | 4. "Borcluların reyestri" informasiya sisteminin yaradılması imkanının araşdırılması və təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.12.2025 | Ədliyyə Nazirliyi (özəl sektor nümayəndələri cəlb olunmaqla) | Yaqub Qurbanov,<br>Qismət Qurbanov,<br>Elçin Nəsibov |
| | | 5. İcra sənədinin icrası zamanı inkasso sərəncamlarının icrası qaydasının təkmilləşdirilməsi ilə bağlı tədbirlərin görülməsi | 01.11.2025 | Ədliyyə Nazirliyi,<br>Mərkəzi Bank | Yaqub Qurbanov,<br>Rasim Məmmədov |
| **2. Prosessual müddətlər** | | | | | |
| 2.1. | Apellyasiya şikayətlərinə baxılması müddətlərinin araşdırılması | Kommersiya mübahisələri üzrə verilmiş apellyasiya şikayətlərinə baxılması müddətlərinin araşdırılması, müddətin uzanmasına təsir edən faktorların müəyyənləşdirilməsi | 01.07.2025 | Tövsiyə edilir:<br>Məhkəmə-Hüquq Şurası,<br>Bakı Apellyasiya Məhkəməsi,<br><br>İcraçı:<br>Ədliyyə Nazirliyi | Səməd Cəfərov,<br>Asim Zülbalayev,<br><br>Azər Mehralıyev |
| 2.2. | Təxirə salınmış məhkəmə iclasları arasındakı müddətlərin tənzimlənməsi | Mülki məhkəmə icraatında təxirə salınmış məhkəmə iclasları arasındakı müddətlərin tənzimlənməsi ilə bağlı araşdırmanın aparılması və təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.08.2025 | Tövsiyə edilir:<br>Məhkəmə-Hüquq Şurası,<br>Ali Məhkəmə,<br>Bakı Apellyasiya Məhkəməsi<br><br>İcraçı:<br>Ədliyyə Nazirliyi | Səməd Cəfərov,<br>Rəşad Nəsirov,<br>Asim Zülbalayev,<br><br>Azər Mehralıyev |

| | | | | | |
|---|---|---|---|---|---|
| **3. Mübahisələrin alternativ həlli** | | | | | |
| 3.1. | Arbitraj xərclərinin maliyyələşdirilməsi | Arbitraj xərclərinin üçüncü şəxslər tərəfindən maliyyələşdirilməsi imkanının araşdırılması və müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.06.2025 | Ədliyyə Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi | Elçin Nəsibov,<br>Nuranə Abbasova |
| 3.2. | Arbitraja dair qanunvericilik tənzimlənməsi üzrə məlumatlılığın artırılması | Ölkəmizdə arbitrajla bağlı məlumatlılığın artırılması üçün geniş təbliğat işlərinin aparılması | 01.07.2025<br>01.11.2025 | Ədliyyə Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi,<br>Kiçik və Orta Biznesin İnkişafı Agentliyi | Elşad Məmmədli,<br>Nuranə Abbasova,<br>Şəmşir Qurbanov |
| **4. Statistikanın şəffaflığı** | | | | | |
| 4.1. | Statistikanın aktuallığı | Aşağıdakı statistik məlumatların mütəmadi yenilənməsinin və dərcinin təmin edilməsi:<br>1. məhkəmələr tərəfindən icraata daxil olmuş və həll olunmuş müxtəlif kateqoriyalı kommersiya işlərinin sayı, baxılma müddətləri (disposition time), həllolunma əmsalı (clearance rate)<br>2. hakimlərin gender faktoru<br>3. icra sənədinin icrası çərçivəsində ortalama müddətlər, xərclər, habelə kateqoriyalar üzrə həll edilmiş və həll olunmamış işlərin sayı | Mütəmadi | Tövsiyə edilir:<br>Məhkəmə-Hüquq Şurası,<br>Ali Məhkəmə,<br>Bakı Apellyasiya Məhkəməsi,<br><br>İcraçı:<br>Ədliyyə Nazirliyi<br>*(aidiyyəti üzrə)* | Səməd Cəfərov,<br>Rəşad Nəsibov,<br>Azər Mehralıyev,<br>Yaqub Qurbanov,<br>Qismət Qurbanov |
| 4.2. | Mediasiya sahəsində statistik məlumatların dərci | 1. Mediasiya vasitəsi ilə həll edilmiş kommersiya mübahisələrinə dair statistik məlumatların dərc edilməsi<br><br>2. Mediatorlar və onların cinslərə görə sayı, habelə ildə azı bir dəfə Mediasiya Şurasının üzvlüyünə qəbul edilmiş mediatorların sayı (cinslərə görə bölgüsü əhatə olunmaqla) haqqında statistik məlumatların dərc edilməsi | 01.09.2025 | Tövsiyə edilir:<br>Mediasiya Şurası | Nadir Adilov,<br>Əli Nəbiyev |

| | | | | | |
|---|---|---|---|---|---|
| **5. Maarifləndirmə və təbliğat işlərinin aparılması** | | | | | |
| 5.1. | Müvafiq sahə üzrə maraqlı subyektlərlə, o cümlədən yerli və xarici sahibkarlıq subyektləri ilə məlumatlandırılma işlərinin təşkili | 1. Müvafiq sahədə məlumatlılığın artırılması və problemlərin müəyyən edilməsi məqsədilə:<br>- sahibkarlar, hakimlər, vəkillər və hüquq ictimaiyyətinin nümayəndələri ilə birgə görüşlərin keçirilməsi, onların rəy və təkliflərinin öyrənilməsi və qiymətləndirilməsi, habelə ictimai rəyin diqqətdə saxlanılması<br>- görülmüş işlər barədə məlumatların mediada yayılması | Hər rübdə 1 dəfə | İşçi qrupda təmsil olunan dövlət orqanları (qurumları)<br><br>Tövsiyə edilir:<br>işçi qrupda təmsil olunan digər şəxslər | Toğrul Hüseynov |
| | | 2. Tematik mövzular üzrə özəl sektor nümayəndələri, o cümlədən konsaltinq şirkətləri və biznes assosiasiyalarının ilə birgə görüşlərin keçirilməsi və müzakirələrin aparılması | Hər ayda 1 dəfə | İşçi qrupda təmsil olunan dövlət orqanları (qurumları)<br><br>Tövsiyə edilir:<br>işçi qrupda təmsil olunan digər şəxslər | Toğrul Hüseynov |